**UOT: 930.22.**

**Şəhla Elçin Qurbanova**
**Qərbi Kaspi Universiteti**
**Magistrant**
**E-mail: isik189@mail.ru**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN TÜRK DÜNYASI İLƏ MƏDƏNİ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə:** Ölkələr arasında dostluq münasibətləri eramızdan əvvəlki dövrlərdən başlayaraq aktuallıq kəsb etmişdir. O dövrün filosofları, alimləri, ictimai xadimləri və yazarları (Mark Tulli Siseron, Epikur, İohann Volfang Höte, Əbu Abdullah Cəfər Rudəki və s.) əsərlərində dostluğa xüsusi qiymət verərək, bunu ölkənin inkişafı üçün onu çox vacib amil hesab etmişlər. Belə ki, ölkələr arasında dostluq münasibətləri, gediş-gəliş və ticari əlaqələr həmin ölkələrin ictimai tərəqqisinə səbəb olurdu. Bunu görməmək mümkün deyildi. Müharibələrdən və döyüşlərdən bezən və talan olunan xalqlar və yerli əhali son dərəcə zəifləyir və tələf olurdular.

*1441-1501-ci illərdə yaşayıb yaratmış özbək şairi və alimi Əlişir Nəvai belə demişdir: "o kəs ki, müqəddəs dostluğu anlamamışdır, içi boş mirvariyə bənzər* [1;590].

Tarix olub keçənlərin şahididir, və bu tarixi araşdıraraq həm müasir dövr üçün örnək alırıq, həm də gələcəkdə addımlarımızı professionalca düzgün atmağa çalışırıq, səhvlərə yol vermədən.

Müstəqil Azərbaycanın diplomatik əlaqələri Azərbaycan Demokratik Respublikasının elan olunması ilə başlamış, XX əsrin sonunda isə olkəmiz müstəqillik əldə etdikdən sonra beynəlxalq səviyyədə tanınaraq davam etmişdir. XXI əsrin diplomatiya tarixində əsas missiyanı Ulu Öndər Heydər Əliyev və sonralar isə dövlətimizin başçısı və ali baş komandan İlham Əliyev yerinə yetirmişlər.

Azərbaycanın suverenliyini tanıyan ilk ölkələr kimi, Türkiyə, Çin, Misir, Almaniya, Böyük Britaniya, ABŞ, Rusiya və digərləri bizimlə diplomatik əlaqələr qurmuşlar. Bir çox ölkələrlə əlaqələrimizin kökləri üzaq keçmişə gedir. Məsələn, *Çinlə əlaqələrimiz orta əsrlərdən başlayaraq, Böyük İpək Yolunun Azərbaycandan keçməsi ilə əlaqədar olmuşdur. Ona görə də hər iki xalqların mədəni, mənəvi və maddi həyat ənənələrində oxşar xüsusiyyətlər tapmaq olar."* [2; 93]

2015-ci ildə Türkiyə Ədliyyə Akademiyasını ziyarət edərkən, Cumhurbaşkanı Rəcəb Tayyib Ərdoğan qeyd etmişdir: *"Siyasət fəlsəfəsinin təməl məsələləri ədalət, əxlaq, hüquq, din və iqtisad ilə ilğilidir. Tariximizdə, kültürümüzdə və inancımızda ədalət məfhumu həyatın mərkəzində yer alır."* [3; 9-10]

**Açar sözlər:** *diplomatiya tarixi, türk dünyası, mədəni irs, "Kitabi-Dədə Qorqud", TÜRKSOY təşkilatı, Türk dünyasının mədəniyyət paytaxtı*

Qədim zamanlardan müasir dövrədək tarixi yol keçmiş bir millət və bir qardaşlıq nümunəsi var: Azərbaycan-Türkiyə. Dövrümüzün Ümummilli lideri kimi qəlbimizdə

xüsusi yeri olan Heydər Əliyev bu qardaşlığa, bu birliyə xitabən söyləmişdir: "Bir millət, iki dövlət."

Lakin müasir zamanda birliyə başqa türk millətləri və xalqları qoşularaq, çox yaxın və sarsılmaz əlaqələri daha da genişləndirmişlər. Və bu birlik zaman-zaman özünün möhkəmliyini, heç bir xarici qüvvə qarşısında sarsılmadığını dəfələrlə sübut etmiş və sübut etməkdədir. Bu birlik bütün sahələri, o cümlədən iqtisadi, mədəni, sosial və digər sahələri əhatə etməklə, daha da möhkəmlənmişdir. Bu birliyin adı – türk dünyasıdır, azərbaycanlıların, qazaxların, qırğızların, uyğurların, türklərin, tatarların və digər millətlərin, xalqların birliyidir.

Azərbaycanın müasir dövrdə türk dünyası ilə əlaqələri və münasibətləri inkişaf etməkdədir. Xüsusilə də bu əlaqələr mədəniyyət sahəsində möhkəmlənmişdir. Belə ki, türk dünyasını birləşdirən mədəni bağlar onun qədim etnik, mədəni, ideoloji və tarixi köklərə malik olmasından irəli gəlir. Bu qardaşlıq qədim mədəni irslərimiz olan "Dədə Qorqud", "Manas" və digər dastanlarımızda təcəssüm olunmuşdur.

Mədəni dəyərlərimiz xalqlarımızın həyat tərzində, mətbəxində, baxışlarında, davranışlarında təcəssüm olunaraq vəhdət təşkil etmişdir. Türk dünyası mənəviyyatımıza, əxlaqımıza yansıyaraq, əlaqələrimizi daha möhtəşəm, daha mənalı etmişdir. Heç də təsadüfi deyildir ki, bu millətlər yaxın qohumluq əlaqələrinə qədər bir-birinə yaxınlaşmışdır.

İlk öncə onu qeyd etmək lazımdır ki, türk dünyasının hərtərəfli möhkəmləşməsində əsas rol Türkiyə və Azərbaycana məxsus olmuşdur. Həm iqtisadi, həm siyasi, həm də mədəni sahədə olan birliyimiz digər türk xalqları üçün nümunədir desək yanılmarıq.

İllər öncə, Azərbaycanın və Türkiyənin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsində, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası ilə bağlı layihəsində, Türkiyə Respublikasında "Star" neft emalı kompleksinin tikintisi layihəsində iştirakları və göstərdikləri dəstək iqtisadi maraqlarımızın təmin olunmasında vahid mövqedən çıxış etməyimizin göstəricisidir. Bu yanaşma başqa sahələrdə, xüsusilə də mədəni sahədə də gerçəkləşmişdir.

Tarix üzrə elmlər doktoru, professor M.Əmrahov türk dünyasına münasibətdə belə bikir söyləyir ki, *"türk dünyası, sadəcə bir coğrafyadan və müstəqil dövlətlərdən ibarət deyil, fəlsəfəsi, həyata baxışları, estetik anlayışı, dəyərlər sistemi etibarı ilə müstəqil bir Mədəni dünyadır"* [4].

Reallıq və gercəklik ondadır ki, türk mədəniyyəti birliyi daha öndədir və vacibdir, çünki onun əsasında türk dövlətləri arasında iqtisadi-siyasi münasibətlər formalaşmağa başlayır. Azərbaycanın türk dünyası ilə mədəni əlaqələri möhkəm təməllər üzərində qurulmuşdur. Siyasi birlik fonunda türk mədəni birliyi daha da möhkəmlənmiş və inkişaf etmişdir.

Qeyd etmək vacibdir ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra türk xalqları ilə hər sahədə əməkdaşlığa və inteqrasiyaya hər zaman birinci olaraq təşəbbüs göstərmiş və uğurlu nəticələr əldə etmişdir. Dediyimizə sübut olaraq, Azərbaycanın qədim mədəni xəzinəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr

edilmiş tədbirlərin həyata keçirilməsi oldu. Belə ki, Azərbaycanın, şəxsən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə TÜRKSOY çərçivəsində Azərbaycanın paytaxtı Bakıda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi keçirilmişdir. 7 fevral 2000-ci il tarixində Azərbaycan Respublikası Prezidenti “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda *“Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1999-cu il tarixli, 98 saylı Sərəncamı ilə təsdiq olunmuş tədbirlər planına uyğun olaraq, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli gecənin Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə Bakı şəhərində 2000-ci il aprelin 9-da keçirilməsi qərarı verilmişdir”* [5].

Bu tədbirin keçirilməsi ictimai-siyasi baxımdan çox vacib və əhəmiyyətli idi. Dəvət olunan qonaqlara biz təkcə Azərbaycanın mədəni irsini nümayiş etdirmədik, habelə o zamanki problemi bir qədər həll etmiş olduq. Bu da Azərbaycan haqqında dürüst informasiyanın təbliğ edilməsi, informasiya blokadasından çıxmaq problemi idi. Buraya nəinki türkdilli ölkələrin, habelə Avropa, Asiya və digər bölgələrdən də nümayəndələr təşrif buyurmuşdular. Bu yubileydən istifadə edərək, vaxtilə bizə qarşı mənfi rəy formalaşdıran düşmən qüvvələrin arzularını puç etmiş olduq. Bir daha Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin şahidi olduq.

Daha bir məsələ haqqında söz açaq. Sovet imperiyası dövründə imperiyanın başında duranlar türksoylu sovet respublikaları xalqlarının türk kökəmli olduqlarını beyinlərindən silmək, öz köklərini onlara unutdurmaq üçün, türkçülük ideyalarına görə elm, ədəbiyyat və mədəniyyətimizin sütunları sayılan Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad Axundzadə, Tağı Şahbazi Simurq və digər minlərlə ədiblərimizə və alimlərimizə qarşı əlindən gələn vəhşilikləri törətmiş, onları məhv etmişlər. Lakin tarix sübut etdi ki, sovet dövləti xalqların türk kökəmli olduqlarını onlara unutdurmağa nail ola bilmədi.

Sovet imperiyası dağıldıqdan sonra türk xalqları bir-birinə sarılaraq, birləşdi. Bu birlik təkcə siyasi birlik olmadı, bu həm də çoxşaxəli birliyə çevrildi və möhkəmləndi. Türk dünyası ilə mədəni əlaqələrin genişlənməsində TÜRKSOY təşkilatının yaradılmasının çox böyük əhəmiyyəti olmuşdur.

*Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilatdır* [6]. Türk xalqları bir-birinə yaxın olmaqla, özlərinin qədim, çoxəsrlik tarixi boyu Avrasiya məkanının böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirə bilmişlər.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimdə çıxış edən cənab prezidentimiz İlham Əliyev xüsusi olaraq qeyd etmişdir ki, *“ortaq türk mirasının qorunması və təbliği ilə bağlı gerçəkləşdirdiyi irimiqyaslı layihələrlə Azərbaycan TÜRKSOY-a hər zaman dəstəyini ifadə etmiş, türkdilli ölkələrin mədəni inteqrasiyasının geniş vüsət almasına çalışmışdır. Təşkilatla respublikamız arasında əməkdaşlıq münasibətləri hazırda ən yüksək səviyyədədir. Şuşa şəhərinin 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi,*

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun və "TÜRKSOY Mədəniyyət Günləri"nin keçirilməsi bu istiqamətdə birgə səylərimizin bariz göstəriciləridir"* [7]

## NƏTİCƏ

Rus yazıçısı L.N.Tolstoyun belə bir fikri var: *"İncəsənət insanların birləşməsi üçün vasitələrdən biridir"* [1; 794]. Daha bir maraqlı fikri Fransız yazıçısı Stendaldan (1783-1842) əxz edə bilərik. O deyirdi ki, *"incəsənət bir tərəfdən xalqın fiziki vəziyyətinin, digər tərəfdən onun bütün sivilizasiyasının məhsuludur"* [1; 794]. Doğrudan da, mədəni əlaqələr ölkələrarası inkişafa və nailiyyətlərə aparır və mədəni, ədəbi-bədii, incəsənət sahələrində tez-tez samballı tədbirlərin həyata keçirilməsinə xalqları sövq edir.

Keçən 30 il ərzində türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat xətti ilə bir sıra mədəni əhəmiyyət kəsb edən tədbirlər həyata keçirilmişdir. O cümlədən, məsələn, *"2012-ci il "Mirzə Fətəli Axundzadə ili", 2017-ci il "Molla Pənah Vaqif ili" elan olunmuş, bundan əlavə, 2016-ci ildə Şəki şəhəri, habelə 2019-cu ildə Türkiyənin Kastamonu şəhəri türk dünyasının mədəniyyət paytaxtları elan olunmuşlar. Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təklifi ilə 2018-ci il azərbaycanlı bəstəkar, Xalq artisti Qara Qarayev, qazax Xalq şairi Mağjan Jumabayev və qırğız yazıçısı Çingiz Aytmatovun xatirəsinə "Anım ili" elan edilmişdir. 2013-cü ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasının 100 illiyi ilə əlaqədar TÜRKSOY və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşlığı nəticəsində operettanın konsert versiyası UNESCO səhnəsində göstərilib* [7].

Sadaladığımız bu faktlar türk dünyasının mədəni əlaqələrinin bariz nümunələridir. Lakin Azərbaycan və Türkiyə arasında əlaqələrin zirvəsində dayanan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi xüsusilə əhəmiyyətlidir. Bir-birimizin çətin anlarımızda hər iki dövlət çiyin-çiyinə mürəkkəb sınaqlardan keçmişlər. Azərbaycan Türkiyəyə və ümumilikdə türk dünyasına, onlarda Azərbaycana həmişə dəstək olmuşlar. Məhz elə Şuşa Bəyannaməsi aramızdakı həmrəyliyə və qardaşlığa sübutdur.

Əməkdaşlığımız və qardaşlığımız davam edir. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında Türkiyə-Azərbaycan Universitetinin yaradılmasına təşəbbüs göstərilmişdir. Artıq bu məsələ ilə bağlı "Anlaşma Memorandumu" da imzalanmışdır. Fikrimcə, bu addım təhsil sahəsində türk dünyasının uğuru kimi yüksək qiymətləndirilməlidir. Zamanla bu cür səylərin hələ davam edəcəyinin və türk dünyasının möhkəmlənməsinin şahidi olacayıq.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI:

**Rus dilində**

1. Жемчужины мысли /сост. Жадан А.А. – Минск, Соврем.шк., 2008. – 864 с., стр. 590
2. Дипломатия мира /Автор Ибрагим Шукуров. Из-во Азербайджан, 1997- 392. с., стр. 93

**Türk dilində**

3. Rəcəb Tayib Ərdoğan "Yeni Türkiye için Adalet Sistemimizdən başlayaraq tüm kurumlarımızı kanser hücrelerindən temizlemeliyiz" - "Akademi və Yaşam" dərgisi, Ocak 2015, sayı: 2, səh. 9-10

**Azərbaycan dilində /internet resursları**

4. Mais Əmrahov, tarix üzrə elmlər doktoru, professor. Azərbaycan-Türkiyə Mədəni əlaqələrində TÜRKSOY-un rolu. https://www.elibrary.az/docs/jurnal/jrn2018_561.pdf

5. Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2000-ci il tarixli "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsinin keçirilməsi haqqında Sərəncamı. https://e-qanun.az/framework/151
6. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı haqqında. https://anl.az/el/emb/TURKSOY/haqqinda.htm
7. Azərbaycan Respublikası Prezidentinin TÜRKSOY-un 30 illiyinə həsr olunmuş təntənəli tədbirin iştirakçılarına Müraciəti. 15 oktyabr 2023. https://president.az/az/articles/view/61594

**Курбанова Шахла Эльчин**

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ КУЛЬТУРНЫХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА С ТУРЕЦКИМ МИРОМ В СОВРЕМЕННЫЙ ПЕРИОД

**Резюме**

Дипломатические отношения суверенного государства Азербайджан впервые начались с объявлением в 1918 году демократического строя, а с распадом советской империи в конце XX века. Азербайджан был признан самостоятельным в международном аспекте. Первыми странами, признавщие наш суверенитет были Турция, Китай, Россия, Египет, Германия, США, Великобритания и другие.

Дружба в сфере экономики, политики, культуры достигли апогея между Азербайджан и Турцией, «одна нация и два государства» отмечал Великий Лидер Гейдар Алиев. Культурные традиции и ценности этих двух стран очень

схожи, имеет глубокие исторические корни. В этой связи тема актуальна и имеет значимость для исследования.

**Ключевые слова:** история дипломатии, тюркский мир, культурное наследие, “Kitabi-Dədə Qorqud”, организация TÜRKSOY, культурная столица тюркского мира

**Gurbanova Shahla Elchin**

## DEVELOPMENT PROSPECTS OF AZERBAIJAN'S CULTURAL RELATIONS WITH THE TURKISH WORLD IN THE MODERN PERIOD

**Summary**

There is model nation and fraternity: Azerbaycan – Turkey and our national leader Haydar Aliyev said about this phenomenon: “One nation and two state”. But at prezent several turkic states were joined to this concord and their relations became so stronger. This unit includes different branches, for example, economiks, social and cultural relations. The name of this unit is “turkic world”.

The cultural relations in this time is so stronger, the cultural junction turkic world proved the presence historical, ethnic, cultural and ideological foundation.

**Key words:** turkic world, the cultural legacy, “Kitabi Dede Korkud”, the international, orqanization “TURKSOY”, the cultural capital of turkic world

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.10.2024**